AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

***Heydər Əliyevin***
*hakimiyyətə gəlməsinin*

# *50 illiyinə*

*həsr olunmuş*

"2018-ci ildə AZƏRBAYCANDA APARILMIŞ
ARXEOLOJİ VƏ ETNOQRAFİK
TƏDQİQATLARIN YEKUNLARI"

*mövzusunda*

***Elmi sessiyanın***

# MATERİALLARI

BAKI
*12 iyun 2019-cu il*

***Məsul redaktor:*** **M.N.RƏHİMOVA**
*tarix elmləri doktoru, professor*

***Redaksiya heyəti:*** **N.Ə.MÜSEYİBLİ**
*tarix elmləri doktoru*

**B.İ.İBRAHİNLİ**
*tarix üzrə fəlsəfə doktoru*

**T.R.ƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

**S.M.AĞAMALİYEVA**
*tarix üzrə fəlsəfə doktoru*

2018-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. *Elmi sessiyanın materialları.* Bakı: 2019,- 140 s.

**ISBN** 978-9952-473-97-1

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 115
Tel.: +994 (12) 5393649
E-mail: arxeoetno@archaeology.org.az
www.arxeologiya.az

© *Arxeologiya və Etnoqrafiya İnstitutu, 2019*

A.Ə.Zeynalov, M.M.Mansurov,
Y.V.Məmmədov, Ü.R.Heydərova, P.Q.Babai

# DAMCILI MAĞARASINDA 2018-Cİ İLDƏ GÖRÜLƏN ÇÖL-TƏDQİQAT İŞLƏRİ

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun təşkil etdiyi Damcılı arxeoloji ekspedisiyasının Tokio Universiteti və Tokio Muzeyinin arxeoloji ekspedisiyası ilə birgə 2018-ci ilin yay mövsümündə əsas tədqiqat istiqaməti Neolitdən əvvəlki dövrlərdə (Mezolit və Paleolit) Orta Kür hövzəsində ovçu-yığıcıların sosial-iqtisadi haqqında həyatı məlumat əldə etmkədən ibarət olmuşdur.

2008-ci ildən başlayaraq Azərbaycan və Yaponiya alimlərinin apardıqları birgə tədqiqatların məqsədi Neolit arxeologiyasında fokuslanaraq Azərbaycanda qida istehsalı təsərrüfatının tədrici inkişaf mənbələrini araşdırmaqdan ibarətdir. Xüsusilə Tovuz rayonunda neolit dövrünə aid iki yaşayış yerində - Göytəpə və Hacı Ələmxanlı təpədə aparılan arxeoloji qazıntılar erkən əkinçilik cəmiyyətlərinin yaranması haqqında dolğun informasiya verməklə yanaşı ümümilikdə, Cənubi Qafqazda bu cəmiyyətlər və baş verən hadisələr haqqında müəyyən elmi təsəvvür formalaşdırıb.

1956-1957-ci illərdə M.M.Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Qazax rayonunda yerləşən Damcılı mağara duşərgəsində arxeoloji qazıntı işləri aparmışdır. Damcılı mağara duşərgəsindən aşkar olunmuş daş məmulatların texniki və tipoloji xüsusiyyətlərinə görə M.M.Hüseynov onları orta və üst paleolit, mezolit və neolit dovrlərinə aid etmişdi.

Bu isə orta Kür hövzəsində erkən kənd təsarrufatı yaşayış yerlərinin sıx olduğu zaman, mezolit düşərgələri haqqında etibarlı dəlil olmadığından irəli gəlir. Bunları nəzərə alaraq, Azərbaycanın qərb bölgəsində Orta Kür hövzəsini qismən əhatə edən Qazax rayonundakı mezolit abidələrinin tədqiqi çox əhəmiyyətli idi. Bu ərazidə isə, bu günədək məlum olan yeganə mezolit düşərgəsi Qazax rayonunda yerləşən Damcılı mağarasıdır və məhz buna görə, 2016-cı ildə Damcılı mağarasında tədqiqatlara başlandı.

2018- ci ildə qazıntı sahəsi 20 kv m dən ibarət olmuşdur: Z0-3, A0-3, B0-3 və C0-3. Bu mövsümdə ən dərin nöqtə təxminən 4.4 metr olmuşdur. Bununla belə, qaya yatağı aşkarlanmamışdır. Bütün xalkolit və erkən dövrlərin çöküntüləri 3 mm dəliklərə malik ələklə ələnmişdir. Mezolit çöküntülərində daha kiçik sedimentlərin olmasına görə yaş ələnmişdir və bu dövrü ehtiva edən mikrolit artefaktlar çətinliklə ayrılmışdır.

2018-ci il mövsümü 2016-2017-ci illərdə IX şurfda aparılmış qazıntılar nəticəsində müəyyən olunmuş stratiqrafiyanı təsdiq etdi. Bundan əlavə yeni Orta Paleolit təbəqəsi aşkar olunmuşdur və VI təbəqə kimi qeydə alındı.

Təbəqə 1. Orta əsrlərə, ən azı VIII-X əsrlərə aid olunur, qalınlığı təxminən 0,5 m təşkil edir. Təbəqənin yuxarı layı şabalıdı-boz rəngli çoxlu sayda əhəngda-

şı qırıntıları olan yüngül çöküntulərdən ibarətdir. Təbəqədən Orta əsrlərə aid bir neçə daş qutu qəbirlər qeydə alınmışdır.

Təbəqə 2. Tunc dövrünə aid təbəqə e.ə. III minilliyə (e.ə. 2800-2220). Aid olunur. Təbəqə homogendir, tərkibində çoxlu tünd boz rəngli kül və ocaqlar qeydə alınıb, qalınlığı 40 sm.

Təbəqə 3. Şabalıdı-boz rəngli az sayda əhəngdaşı qırıntıları olan çöküntulərdən ibarətdir. Təbəqənin qalınlığı 30-50 sm. Təbəqədən madi-mədəniyyət qalıqları aşkarlanmayıb.

Təbəqə 4. Qalınlığı təxminən 1 m dən 1,2 m dir. Təbəqə qırmızıya çalan şabalıdı rəngli torpaqdan və tünd boz rəngli küldən ibarət ən azı üç çöküntü layından ibarətdir. İlk iki üst layın saxsı nümunələri xüsusiyyətlərinə və hazırlanma üsuluna görə Göytəpədən aşkar olunmuş saxsı ilə eynilik göstərdi, Alt lay keramikasızdır. Təbəqə e.ə. 6-ci minilliyin ortalarına (e.ə. 6000-5300) aid olunur.

Təbəqə 5. Təxminən 1 metr qalınlıqda olan təbəqə iki litoloji laydan ibarətdir: qırmızıya çalan şabalıdı rəngli, çoxlu sayda əhəngdaşı qırıntıları olan iridənəli torpaqdan və qaraya çalan boz rəngli küldən ibarətdir. Əldə olunmuş radiokarbon təhlil bu təbəqə e.ə. VII minilliyin sonuna (6400-6000), yəni son mezolitə aid etməyə imkan verir. Bu təbəqə tamamilə keramıkasızdır. Tapıntılar isə mikrolitlərdən – mikrobıçaqlar, geometrik alətlərdən ibarətdir. Alətlər çaxmaq daşından hazırlanmışdır.

Təbəqə 6. Şabalıdı-boz rəngli çöküntülərdən və çay daşlarından ibarətdir. Təbəqədən bir neçə, orta paleolit dövrünə aid levallua tipli alət aşkar olunmuşdur.

X.Alməmmədov

## 2018-Cİ İLDƏ "QARABAĞ NEOLİT-ENEOLİT EKSPEDİSİYASI"NIN İSMAYILBƏYTƏPƏ NEOLİT DÖVRÜ YAŞAYIŞ YERİNDƏ APARDIĞI ARXEOLOJİ QAZINTI İŞLƏRİ

"Qarabağ neolit-eneolit ekspedisiyası" tədqiqat planına əsasən, 2018-ci ilin iyun-iyul aylarında Qarabağ düzənliyində arxeoloji kəşfiyyat və ekspedisiyanın əsas tədqiqat obyekti olan İsmayılbəytəpə neolit dövrü yaşayış yerində arxeoloji qazıntı işləri aparmışdır.

Arxeoloji kəşfiyyat işləri əsasən Bərdə və Tərtər rayonları ərazisində aparılmışdır. Bərdə rayonu ərazisində, Əmirli və Xanərəb kəndləri arasında yerləşən Xaçınçayın qədim yatağı boyunca yerləşən Buruqtəpə, Koramaltəpə və Əmirli neolit dövrü yaşayış yerlərində topoqrafiq ölçmə işləri aparılmış, onların topoqrafiq planı və relyef görüntülərinin 3D formatı hazırlanmışdır.

Ekspedisiyanın əsas tədqiqat obyekti olan İsmayılbəytəpə neolit dövrü abi-

# MÜNDƏRİCAT

M.N.Rəhimova
AZƏRBAYCAN ARXEOLOGİYA VƏ ETNOQRAFİYA ELMLƏRİNİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU ........................................ 3

**ARXEOLOGİYA**

A.Ə.Zeynalov, M.M.Mansurov, Y.V.Məmmədov, Ü.R.Heydərova, P.Q.Babai
DAMCILI MAĞARASINDA 2018-Cİ İLDƏ GÖRÜLƏN ÇÖL-TƏDQİQAT İŞLƏRİ ........................................ 8

X.Alməmmədov
2018-Cİ İLDƏ "QARABAĞ NEOLİT-ENEOLİT EKSPEDİSİYASI"NIN İSMAYILBƏYTƏPƏ NEOLİT DÖVRÜ YAŞAYIŞ YERİNDƏ APARDIĞI ARXEOLOJİ QAZINTI İŞLƏRİ ........................................ 9

V.Baxşəliyev, Z.Quliyeva, E.Baxşəliyev, T.Həşimova, K.Mehbalıyev
NAXÇIVANTƏPƏDƏ 2018-Cİ İLDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLARIN YEKUNLARI ........................................ 11

N.Müseyibli, A.Ağalarzadə, G.Axundova
QALAYERİNDƏ 2018-Cİ İLDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILAR ........................................ 13

S.H.Aşurov, S.A.Hüseynova, F.A.Əliyeva, N.A.Nəhmətova, N.V.Məmmədova
ÇAQQALLIQTƏPƏ ABİDƏLƏR KOMPLEKSİ ........................................ 15

A.Q.Seyidov, V.B.Baxşəliyev
CULFA RAYONU ƏRAZİSİNDƏ 2018-Cİ İLİN ARXEOLOJİ TƏDQİQATLARI ........................................ 19

Д.Мусаев
О РЕЗУЛЬТАТАХ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК НА ПОСЕЛЕНИЕ ГАСАНГАЛА В ХАЧМАССКОМ РАЙОНЕ В 2018 Г. ........................................ 20

A.Ağalarzadə
2018-Cİ İLDƏ YARDIMLI RAYONUNUN TUNC-İLK DƏMIR DÖVRÜ ABİDƏLƏRİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİ ........................................ 22